# Manatın məzənnəsinin dəyişdirilməsində ajiotaja ehtiyac yoxdur

**(Əvvəli 4-cü səhifədə).**

Cənab Prezident İlham Əliyev də bu məsələyə münasibət bildirərkən qeyd edib ki, 2005-ci ildə verilən qərara əsasən, 2006-cı ilin əvvəlindən pul islahatları keçirilib: «O vaxt 1 dollar 5 min manata bərabər idi. Biz manatı dollarla eyniləşdirdik, 1 manat 1 dollar oldu və 10 il ərzində manat getdikcə dollara nisbətən gücləndi. Əslində bu, bizim iqtisadi islahatlarımızın uğurlu olmasını göstərir. Ancaq eyni zamanda qonşuluqda baş verən hadisələr, bütün qonşu dövlətlərdə milli valyutaların kəskin şəkildə ucuzlaşması istər-istəməz bizə də mənfi təsir göstərməyə başlayıb. Üstəgəl dünyada neftin qiymətinin kəskin aşağı düşməsi bizim gəlirlərimizə də mənfi təsir göstərib. Və eyni zamanda manatın getdikcə məzənnəsinin artması iqtisadi inkişafımıza mənfi təsir göstərirdi. Ona görə də qərar qəbul edilmişdi ki, manat bir az ucuzlaşsın. Bu barədə yanvarda, regionların sosial-iqtisadi inkişafının yekunlarına həsr olunmuş konfransda mən açıq şəkildə öz fikrimi bildirmişdim ki, insanlar bunu bilsinlər və buna hazır olsunlar ki, heç kəs üçün bu, süpriz olmasın. O vaxt da demişəm ki, manat həddindən artıq bahalaşıb, bu iqtisadiyyatımıza mənfi təsir göstərir və regionda baş verən hadisələr dünyada neftin qiymətinin aşağı düşməsi artıq müəyyən çətinliklərə gətirib çıxarıb». Cənab Prezidentin bu açıqlamasından sonra Mərkəzi Bank qərara gəlmişdir ki, tədricən ilin sonunadək manatın məzənnəsi aşağı düşsün. Dövlət başçısı daha sonra demişdi: «Ancaq ondan sonra biz gördük ki, müəyyən ajiotaj yarandı və bir qədər manatın məzənnəsində dəyişiklik olan kimi əhali pul dəyişmə məntəqələrinə üz tutdu və kütləvi şəkildə dollar almağa başladı. Eyni zamanda bu vəziyyətdən bəzi spekulyantlar, möhtəkirlər, natəmiz adamlar əsassız qazanc əldə etmək üçün istifadə ediblər». Cənab Prezident çıxışında misal gətirib ki, sadəcə bir neçə gün ərzində hər gün minimum 500 milyon dollar bazardan alınırmış. Əgər belə gedərmişsə ilin axırına qədər Mərkəzi Bankın valyuta ehtiyatları kəskin şəkildə azala bilərdi. Məhz belə olduğu halda qərar verilmişdir ki, manat ucuzlaşsın. Əslində isə manat ucuzlaşmamış, əvvəlki səviyyəyə enmişdir. Yəni, 2006-cı il islahatı başlayanda bir manat bir dollar idisə, bu gün də bir manat təxminən bir dollardır. Ölkə başçısı süni qiymət artımının qarşısını almaq üçün demişdir: «Bütün müvafiq qurumlara göstəriş verilmişdir ki, süni qiymət artımına yol verilməsin. Monitorinq keçirilir və qiyməti süni şəkildə artırmaq istəyənlərə qarşı çox ciddi cəza tədbirləri görüləcəkdir».

Bəli, artıq cəza tədbirləri başlanmışdır. Bu tədbirlərin dadını bilənlər Qəbələdə də tapılmışdır. Biz qəzetimizdə belələrinin adı və soyadını açıqlamasaq da bir çoxları onları yaxşı tanıyır. Bundan sonra da kim süni şəkildə qiymət artırarsa dövlətimiz tərəfindən öz cəzasını alacaqdır. Çünki son illər ərzində ölkədə istehlak olunan əsas ərzaq məhsulları Azərbaycanda istehsal olunur. Cənab Prezident qeyd etmişdir ki, belə olan halda bu məhsullarda heç bir bahalaşmadan söhbət gedə bilməz. Lakin bəzi möhtəkirlər, natəmiz adamlar, tamahkarlar fürsətdən istifadə edərək asan yolla daha çox qazanc əldə etməyə çalışıb.Təcili tədbirlər isə belələrinin arzusunu ürəyində qoyub və bundan sonra da qoyacaqdır. Çünki, cənab Prezidentin və dövlətimizin daim həyata keçirdiyi məqsədyönlü tədbirlərlə sosial ədalət prinsipləri bərqərar olmuşdur. Nəticə isə budur ki, artıq ölkədə orta aylıq əməkhaqqı 600 dollara yaxınlaşmış, 400 min insana ünvanlı sosial yardım edilir və digər bir çox sahələrdə də əhalinin sosial müdafiəsi, hüquqlarının qorunması daim təmin edilmişdir.

Məlumdur ki, manatın məzənnəsinin dəyişdirilməsi ilə əlaqədar bəzi problemlərin də aradan qaldırılması üçün tədbirlər görülməkdədir. Əvvəlki illərdə olduğu kimi bundan sonra da cənab Prezident tərəfindən həyata keçiriləcək kompleks tədbirlər nəticəsində uğurlu inkişaf prosesi davam edəcəkdir. Ölkə başçısı bildirmişdir ki, iqtisadiyyatımız sabitdir, ictimai-siyasi vəziyyət möhkəmdir: «Manatın dollara bərabərləşdirilməsi imkan verəcək ki, daha çox vəsait sosial məsələlərə xərclənsin, büdcədə problem olmasın və ölkə üçün lazım olan bu infrastruktur layihələr vaxtlı-vaxtında icra edilsin».

Bu gün analitiklər, ekspertlər qeyd edirlər ki, manat etibarlı valyuta kimi dəyərini qoruyacaq, eyni zamanda manatın məzənnəsinin dəyişdirilməsi yenə də xarici investisiyaların stimullaşdırılmasına xidmət edəcəkdir.

Qərb mütəxəssislərinin fikrincə isə postsovet məkanında ən ağır zərbə Rusiya rublu, Ukrayna qrivinisi, gürcü larisi və Belarus rubluna dəyib. Azərbaycan manatına gəldikdə isə ekspertlərin rəyi belədir ki, manatın dəyərinin dollara bərabərləşdirilməsi yeganə və düzgün çıxış yoludur.

Bütün bunlara əsaslanaraq demək olar ki, manatın məzənnəsinin dəyişdirilməsi ilə bağlı ölkə əhalisi arasında heç bir ajiotaj yaranmasına ehtiyac yoxdur. Bəzi işbazların istehlak bazarında süni qiymət artırması cəhdi sosial ədalətin pozulmasına gətirib çıxarır. Buna qəti olaraq yol verilməməlidir.

**Nadir ATAKİŞİYEV.**

# Maarifləndirmə xarakterli görüş

Əhalinin və ərazilərin təbii və texnogen xarakterli fövqəladə hallardan qorunması, fövqəladə halların qarşısının alınması, insanların bu sahədə xəbərdar və təlimatlı olmasında səmərəliliyin artırılması məqsədi ilə FHN Şimal-qərb Regional Mərkəzi tərəfindən 05 mart 2015-ci il tarixində Mərkəzin akt zalında Qəbələ rayonunun qəsəbə və kənd inzibati ərazi nümayəndələri və bələdiyyə sədrləri ilə “Fövqəladə hallar zamanı davranış və yanğın təhlükəsizliyi qaydaları” mövzusunda maarifləndirmə xarakterli görüş keçirilmişdir. Regional Mərkəzlə bərabər Şimal-qərb Regional Dövlət Yanğın Nəzarəti İdarəsinin, Şimal-qərb Regional Sənayedə İşlərin Təhlükəsiz Görülməsi və Dağ-mədən Nəzarəti Müfəttişliyinin, Şimal-qərb Regional Tikinti Müfəttişliyinin əməkdaşlarının da iştirak etdiyi tədbirdə ilk öncə Mərkəzin rəisi mayor Sadiq Bəkirli çıxış edərək tədbirin məqsədi haqqında danışmışdır. Sonra məruzəçilər tərəfindən iştirakçılara Qəbələ rayonu ərazisində baş verə biləcək təbii və texnogen xarakterli fövqəladə hallar zamanı davranış qaydaları, yanğın təhlükəsizliyi və tikintidə təhlükəsizliyin norma və qaydaları izah olunmuş, rayon icra hakimiyyəti ilə Mərkəz arasında 2014-2019-cu illər üçün nəzərdə tutulmuş “Qarşılıqlı Fəaliyyət” planında qeyd olunmuş tədbirlərin icrası ilə bağlı geniş məlumatlar verilmişdir.




Sonda iştirakçılarla fikir mübadiləsi aparılmış, Fövqəladə Hallar Nazirliyinin fəaliyyət istiqamətləri və strukturu haqqında videoçarx izlənilmişdir.



**FHN Şimal-qərb Regional Mərkəzinin İctimaiyyətlə əlaqə və təbliğat sektoru.**

# Məktəbdə Mülki Müdafiə Günü ilə əlaqədar tədbir keçirilmişdir

Mülki Müdafiə Günü münasibətilə Həmzəli kənd tam orta məktəbində tədbir keçirilmişdir. Tədbirdə rayon icra hakimiyyətinin baş mütəxəssisi Tahir Hacıyev, FHN Şamaxı Regional Mülki Müdafiə şöbəsinin rəisi, polkovnik-leytenant Faiq Əhmədov, «N» saylı hərbi hissənin zabitləri, leytenant Cavidan Abdullayev, kapitan Elmar Mustafayev, kapitan Samir Fərəməzov, FHN-nin Şimal-qərb Regional Mərkəzinin nümayəndəsi baş leytenant Anar Xəlilov, kapitan Əziz Nəzirov rayon təhsil şöbəsinin nümayəndəsi İbrahim Faxlulov iştirak etmişlər. Onlar 1 Mart Ümumdünya Mülki Müdafiə Gününün yaranma tarixi haqqında şagirdlərə məlumat vermiş, məktəbdə keçirilən mülki müdafiə dərsləri ilə maraqlanmışlar.

1931-ci ildən yaranmağa başlayan, 1972-ci ildə martın 1-də qanuni qüvvəyə minən bu təşkilata Azərbaycan Respublikası 1993-cü ildən üzv olmuşdur. Beynəlxalq Mülki Müdafiə Təşkilatının rəsmi ad günü sayılan 1 Mart—Ümumdünya Mülki Müdafiə Günü 1995-ci ildən başlayaraq hər il konkret bir mövzuya həsr olunmaqla təşkilata üzv olan dövlətlərdə müvafiq kütləvi tədbirlər keçirilməsi təmin edilir.

Bütün vətəndaşlar kimi, hər bir şagirdin şərəfli vəzifələrindən biri də xalqın əməyi ilə yaradılmış binaları və məktəb əmlakını mühafizə etmək, o cümlədən onu yanğından qorumaqdır. Məktəblilər eyni zamanda yanğın təhlükəsizliyi qaydalarının fəal təbliğatçısı, yanğından mühafizə xidməti əməkdaşlarının yaxın dostu və köməkçisi kimi tərbiyə olunmalıdırlar.

Yanğına yol verməmək üçün məktəblilər nəyi bilməlidir?

Bu suala cavab olaraq MM işçiləri məktəblilərə hər tərəfli məlumat vermiş və əyani olaraq onlara yanğın zamanı nə etmək lazım olduğunu göstərmişlər.

Tədbir 2 saat davam etmişdir.

**Güleyfə HACIYEVA,**
**Həmzəli kənd tam orta məktəbin müəllimi.**

# Toplantı keçirilmişdir

Bu günlərdə Azərbaycan Respublikası İnsan Hüquqları üzrə müvəkkiliyinin (Ombudsmanın) Şəki Regional Mərkəzinin əməkdaşları Bum qəsəbəsində olmuşlar. Onlar qəsəbə sakinlərinin bir qrupu ilə görüşmüşlər.

Tədbirdə mərkəzin rəhbəri Pərviz Məmmədov və baş məsləhətçi Şahin Tağıyev iştirak etmişdir.

Ərazi nümayəndəsi Eynulla Məmmədov toplantını açıq elan edərək sözü P. Məmmədova vermişdir. O, insan hüquqlarından, onun qorunmasından və sair məsələlərdən söhbət açmışdır. Toplantıda Q. Adıgözəlov, T. Qaragözov, A. Məsimov, Z. Aslanov, Ş. Rəşidov çıxış etmiş və onların sualları cavablandırılmışdır.

**Emin BARATOĞLU.**